Ədəbiyyat qəzeti

22 5 sentyabr 2020-ci il

# Güləmail MURAD - 70



Hörmətli Güləmail Murad!

Sizi - tanınmış şairi yubileyiniz münasibətilə təbrik edirik. Siz 4 sentyabr 1950-ci ildə Ağstafa rayonunun Sadıqlı kəndində anadan olmusunuz. 1968-1973-cü illərdə Neft və Kimya İnstitunun (indiki Neft və Sənaye Universitetinin) Neft mədəni fakültəsində təhsil almısınız. Əmək fəaliyyətinizə Gürcüstan Respublikasının Qardabani rayonunda başlamış, sonra vaxtilə təhsil aldığınız universitetin nəzdində fəaliyyət göstərən Neft-Energetika Kollecində müəllim işləmisiniz. Hal-hazırda Azərbaycan Yazıçılar Birliyində ədəbi işçi kimi fəaliyyət göstərirsiniz.

Siz bədii yanradıcılığa tələbəlik illərinizdən başlamısınız. "Güldüm göynəyə-göynəyə", "Səninlə sənsiz", "Qarabağ harayı", "Dağlarda şəhid səsi", "Günəş qürub edəndə", "Döyüş yolları" və s. kitabınız oxucular tərəfindən maraqla qarşılanıb. Şeirləriniz bir çox dillərə tərcümə edilib, sözlərinizə musiqilər bəstələnib.

Siz Türkman Ədəbiyyat və Yazarlar Birliyinin, İraq-Türkman Ədəbiyyatçılar Birliyinin, İLESAM-ın üzvüsünüz. Bir çox beynəlxalq diplom və medallara layiq görülübsünüz.

Hörmətli Güləmail Murad!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**